Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# AYLIQ BÜLLETEN

Oktyabr 2020

## TƏHSİLDƏ, İNKİŞAFDA VƏ İŞTİRAKDA MANEƏLƏRİN MÜƏYYƏN EDİLMƏSİ

Təhsil, inkişaf və iştirakda maneələrin erkən müəyyən edilməsi, bu maneələrin aradan qaldırılmasına yönəlmiş müdaxilə tədbirlərinin uğurlu olması üçün vacibdir. Aşağı qiymət alan şagirdlər təhsil, inkişaf və iştirakda üzləşdikləri maneələri dəyərləndirilmədən, adətən təhsil alma qabiliyyəti olmayan şagirdlər kimi təsnifləndirilir. Bu maneələrdən bəziləri sinifdəki məhdud şəraitdən, qeyri-çevik tədris planı və imtahan sistemindən, tələblərə cavab verməyən tədris materiallarından, əlilliyi olan şagirdlərə uyğun olmayan tədris metodundan yarana bilər. Şagirdlərin düzgün olmayan qiymətləndirilmə əsasında təsniflədirilməsinə yol verməmək inklüziv və hamı üçün təhsilin ən vacib istiqamətidir. Yuxarıda sadalanan maneələr siyahısı əlilliyi olan uşaqların sinif otağında, məktəblərdə və ictimaiyyətdə üzləşdiyi mühit, davranış və fərdi problemləri müəyyən etmək üçün istifadə edilə bilər.



Keçmişdə əlilliyi olan uşaqların təhsili onların tibbi diaqnozu ilə təyin edilirdi. Belə düşünülürdü ki, oxşar tibbi diaqnozu olan şagirdlər eyni proqram əsasında təhsil almalıdırlar. Bu gün aydın olur ki, bir uşağın təhsilinə sağlamlıqdan əlavə digər faktorlar da təsir edir.

Buna görə də əlilliyi olan uşaqların özünü rahat və eyni dəyərdə hiss etmələri üçün sağlam mühit yaradılması lazımdır. Əlilliyi olan uşaqların digər uşaqlarla müqayisədə yalnız təhsildə müvəffəqiyyət dərəcələrini deyil, akademik, sosial, emosional və fiziki inkişafını da qiymətləndirməliyik. Uşaqların inkişafı onların fərdi tədris planlarına əsasən dəyərləndirilməlidir. Bu planlar uşağın təhsil, inkişaf və iştirakda üzləşə biləcəyi maneələri nəzərə alaraq işlənib hazırlanmalıdır.



Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# TƏHSİLDƏ, İNKİŞAFDA VƏ İŞTİRAKDA MANEƏLƏR NƏDİR?

*Təhsil, inkişaf və iştirakdakı maneələr uşaqdan uşağa fərqlənir. Bütün əlilliyi olan və olmayan uşaqların maneələrlə üzləşdiyini anlamaq hamımız üçün vacibdir.*

Bu maneələr düzgün ünvanlanıb həll edilmirsə, uşaqlar tam akademik, sosial, emosional və fiziki potensialına nail ola bilməyəcəklər. Təhsildəki maneələri araşdırıb, aradan qaldırmaq mümkündür. Bu baxımdan manelər müvəqqəti və ya daimi ola bilər. Əlilliyi olan uşaqlar həm ətraf mühit, həm də fərdi maneələrlə üzləşirlər. Bu iki maneə forması bir-birinə bağlıdır. Uşaqların tam potensialının inkişaf etməsi üçün, məktəb, ev və ictimai tərəfindən potensial maneələr azaldılmalı və mümkün qədər aradan qaldırılmalıdır. Uşaqlardakı fərdi manelərə misal olaraq, sosial bacarıqların olmaması, sağlamlıq vəziyyəti, zəif motivasiya, özünədəyər və inamın aşağı olmasını göstərmək olar. Məktəb və sinif mühitinin inklüziv, öyrənmək üçün əlverişli və yaxud fiziki cəhətdən əlçatan olmaması, erkən müdaxilə proqramlarının məhdud və ya əlçatmaz olması, tədris metodları və təlim materiallarının öyrənmək üçün əlverişli olmaması, yaxud şagirdlər arasında ehtiyac və qabiliyyətlərin müxtəlifliyinə cavab verə bilməməsi kimi amillər ümumi maneələrə aiddir. Bir müəllim, valideyn və yaxud təhsil meneceri kimi belə fikir yarana bilər ki, bütün maneələri azaltmaq və ya aradan qaldırmaq mümkün deyil. Tədris planına yaxud sosial-iqtisadi vəziyyətə görə cəmiyyətə təsir gücümüz zəif ola bilər.

## MÜƏLLİMLƏR ÜÇÜN TÖVSİYƏLƏR

*Bülletenimizin oktyabr buraxılışda müəllimlər üçün "Təhsildə, inkişafda və iştirakda maneələrin aradan qaldırılması üçün" praktiki tövsiyələri bölüşürük.*

- Məktəbdə tədris dili fərqli olsa belə, uşaqların öz ana dillərində (işarə dili və ya digər azlıqların dili) ünsiyyət qurmalarına şərait yaradılmalıdır. Əgər məktəbdə heç kim şagirdin dilini bilmirsə, ailəsindən və ya icmasından kiminsə köməyindən istifadə edə bilərsiniz. Uşaqlara öz fikir və rəylərini ifadə etmək üçün vaxt verilməlidir. Əlilliyi olan bir çox uşaqlara digərlərindən fərqli olaraq özlərini ifadə etməyə daha çox vaxt tələb olunur.
- Çalışın uşaqlara (xüsusən təlimdə problemi olanlara) cavablandıra biləcəkləri sualları verəsiniz. Bu, onlarda özünəinamı möhkəmkəmləndirəcək və təhsilə davam etməyə motivasiya yaradacaq.
- Uşaqlar öz fikirlərini ifadə etməyə təşviq edilməlidir və biz çalışmalıyıq ki, mümkün olduğu qədər onların bildirdiyi fikir və tövsiyələrini istifadə edək. Onları tərifləyəndə səmimi və dürüst olun. Bu, uşaqlara etimad yaratmağa və özünə düzgün dəyər verməyə kömək edəcəkdir.
- Bir uşaq birdən davranışını dəyişirsə və ya həmişəki kimi davranmırsa, biz səbəbini araşdırmalıyıq. Bu dəyişmənin səbəbini zorakılıq (verbal, emosional, fiziki və cinsi) ola biləcəyini ehtimal ediriksə, uşaq hüquqları və müdafiəsi ilə məşğul olan müvafiq təşkilatlara kömək və məsləhət üçün müraciət etməliyik. Bu cür təşkilatlar dünyanın bütün ölkələrində fəaliyyət göstərir. UNICEF və "Save the Children" təşkilatlarının ən yaxın nümayəndəlikləri də kömək edə bilər.
- Təhsil, inkişaf və iştirakda maneələrlə üzləşən uşaqları nəzərə alaraq onların digər şagirdlərlə ünsiyyəti və bərabər təhsil almaları üçün siniflərdə tələb olunan müvafiq şərait yaradılmalıdır. Hər bir şagirdin ötən ay ərzində nümayiş etdirdiyi ən azı bir yaxşı keyfiyyətini vurğulayın və sinfinizdəki bütün uşaqlara qayğı göstərdiyinizə əmin olun.

**Mənbə:** Xüsusi kitabça 3: İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili (UNESCO). https://www.inkluzivtehsil.az/book/17.html

Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# MÜƏLLİM TƏCRÜBƏSİ

***Eynullayeva Lalə***

*Şamaxı rayon İ.Rəsulov adına Muğanlı kənd tam orta məktəbində ibtidai sinif müəllimi*

Bu şeir əslində bir uşağın deyil, bir çox uşaqların fikrini ifadə edir və sanki həyəcan təbili kimi səslənir. Çünki cəmiyyətdə, həmçinin təhsil prosesində uşaqların fərqliliklərinə deyil, bacarıqlarına, müsbət tərəflərinə diqqət yetirilməsi həm problem, həm də tələb kimi irəli sürülmüşdür.

Son dövrlər formalaşmış və inklüziv təhsil sahəsində maarifləndirmədə böyük rol oynayan "Əlilliyə sosial yanaşma" anlayışı bu baxımdan əhəmiyyət kəsb edir. Qeyd edim ki, mən ibtidai sinif müəllimi kimi sinifdə yalnız əlilliyi olan deyil, bütün uşaqların müəyyən mənada sosial yanaşmaya ehtiyac duyduğu qənaətinə gəlmişəm, çünki bütün uşaqlar zaman-zaman məktəbdə hansısa çətinliklərlə üzləşirlər. Bu çətinliklərin öhdəsindən gəlməkdə uşaqlara kömək etmək üçün müəllim peşəkarlıq və səriştəliliyik səviyyəsinin mütəmadi artırılması qayğısına qalmalıdır. Bu heç də o demək deyil ki, müəllim əlilliyi olan uşağı qorumağa çalışmalıdır. Təcrübəmdən deyə bilərəm ki, bu uşağın darıxmasına və həvəsdən düşməsinə səbəb ola bilər. Müəllimin ilk prinsipi sinifdə bərabər və ədalətli mühit qurmaqdır.

Mən Eynullayeva Lalə Şamaxı rayon İ.Rəsulov adına Muğanlı kənd tam orta məktəbində ibtidai sinif müəllimi işləyirəm. Peşəmi çox sevirəm və şagirdlərimlə vaxt keçirmək mənə stimul verir. Sinfimdə Uğur adlı (ad şərti seçilmişdir) nitq çətinliyi olan şagirdim var. Uğurun ailəsinə məxsus olmayan insanlara qarşı kompleksi var. Mən onun təlim prosesinə qoşulmasından öncə təlim mühitinə adaptasiya olunması qayğısına qaldım. İlk olaraq sinifdə elə bir atmosfer yaratmışam ki, şagirdlər Uğuru olduğu kimi qəbul edir. Mənimlə təklikdə söhbətlər aparan zaman söz və ya çox qısa cümlələrlə fikirlərini ifadə edir. O, əvvəllər sinif yoldaşları ilə ünsiyyət qurmurdu, hazırda isə sinifdə formalaşan düzgün psixoloji mühit sayəsində zaman-zaman digər şagirdlərlə də ünsiyyət qurur.

Psixoloji mühitlə yanaşı düzgün təlim mühitinin qurulması üçün mən sinfimdə Universal Öyrənmə Dizaynının hər üç prinsipindən istifadə edərək Uğuru, həmçinin bütün şagirdləri rəngarən təlim fəaliyyətlərinə qoşa bilirəm. Şifahi – frontal sorğu prosesini bəzən yazılı forma ilə əvəz edirəm. Bu uğurun özünüifadəsinə müsbət təsir edir. Dərsdə qrupla iş formasından istifadə zamanı da Uğur yazılı şəkildə fikirlərini yoldaşları ilə bölüşür, əməkdaşlıq edir. Onun gözəl əl qabiliyyəti var və mən çalışıram ki, bu xüsusiyyətə uyğun olaraq Uğuru müxtəlif fəaliyyətlərə qoşum. Bu məqsədlə Texnologiya və Təsviri incəsənət fənləri ilə digər fənlərin inteqrasiya imkanlarından istifadə edirəm. Təlimin məzmununu mənimsəməkdə çətinlik çəkmir, təbii ki, bunda fərdi söhbət və təmənnasız fərdi dəstəyin böyük rolu vardır. Riyaziyyat dərsində vurma əməli üzrə verdiyim suallara Uğurun yazılı cavab verməsi digər şagirdlərim tərəfindən anlayışla qarşılanır. Bəzən parta yoldaşı da ona dəstək olur. Azərbaycan dili fənninin tədrisi zamanı ad, əlamət, hərəkət bildirən sözləri soruşduqda tətbiq etdiyim yeni metoda uyğun olaraq, Uğur digər uşaqlardan fərqli olaraq üçrəngli bayrağımızla öz fikrini ifadə edir. Belə ki, ad bildirən sözləri – mavi, əlamət bildirən sözləri qırmızı, hərəkət bildirən sözləri isə yaşıl qələmlə göstərir.

Uğur fikirlərini şifahi nitqində ifadə etməsə də, əl işlərindən necə vətənpərvər olduğunu hiss edirəm. Odur ki, məktəbimizdə keçirilən bütün tədbirlərdə iştirakını təmin edirəm. Əsgər geyimində olanda çox sevinir və təklikdə mənə hərbçi olacağını deyib. Son günlər ölkəmizdə yaşanan qürurverici anları sinifdə danışdıqca, Uğurun gözlərindəki sevinci görməmək mümkün deyil. Bütün şagirdlərim kimi, o da Qarabağımızın tamamilə azad olunacağı günü səbirsizliklə gözləyir. O, tədbirlərdə rəqs, əl işləri və rəsmləri ilə çıxış edir. Şagirdlərimin tənəffüslərdə Uğuru bütün oyunlara qoşması, birlikdə gülüşləri məndə kövrək və qürurlu anlar yaşadır. İnanıram ki, şagirdlərimlə birgə biz Uğurun ünsiyyət çətinliyini aradan qaldırmasına nail olacağıq, çünki bu yolda artıq bir çox uğurlarımız var. Bu uğurlar bir gündə əldə olunmur, müəllimdən səbrlilik, müşahidəçilik, diqqətlilik, yenilikləri tətbiq etməyə meyillik, bir sözlə, inklüziv dəyərlərə malik olmağı tələb edir.

Fikirlərimi şagirdlərimə dediyim ifadələrlə bitirmək istərdim: Əziz balalar, siz hər biriniz fərqlisiniz, gözəlsiniz, eyni zamanda da bütün insanlarla bərabərsiniz. Bu sizə bəxş olunmuş xoşbəxtlikdir!



*Mənim ayaqlarım yoxdur,*
*Lakin mənim hələ də hisslərim var,*
*Mən görmürəm,*
*Lakin mən hər zaman düşünürəm.*
*Baxmayaraq ki, eşitmirəm,*
*Mən hələ də ünsiyyət qurmaq istəyirəm.*
*Nə üçün insanlar məni faydasız,*
*Düşünə bilməyən, danışa bilməyən hesab edirlər.*
*Halbuki mən digərləri kimi*
*Dünya haqqında fikirləşməyi bilirəm.*

**Coralie Severs (14 yaş)**
**Böyük Britaniya**



Bülleten Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanıb. Bülletenin məzmununa görə "Regional İnkişaf" İctimai Birliyi məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul oluna bilməz.